

**ALQIŞ MUSAYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV SİYASİ KURSU MİLLİ STRATEJİ KONSEPSİYAMIZDIR

Müstəqil Azərbaycan qloballaşan dünyada öz layiqli yerini tutaraq, möhkəmlənməkdə və getdikcə regionun qabaqcıl və böyük perspektivləri olan bir dövlətinə çevrilməkdədir. Heydər Əliyevin müəllifi olduğu strateji inkişaf konsepsiyası ölkəmizin tərəqqisinə - vətəndaş cəmiyyətinin möhkəmlənməsinə, demokratik dəyərlərin daha da dərinləşməsinə, eyni zamanda beynəlxalq aləmdə Azərbaycanın sağlam imicinin qorunub saxlanmasına yönəlib. Ayrı-ayrı vaxtlarda müxtəlif formalarda özünü büruzə verən, Vətənimizin tərəqqisini istəməyən xarici və daxili qüvvələrin təzyiqlərinə, ictimai rəyi azdırmaq cəhdlərinə baxmayaraq, Heydər Əliyev kursu düz xətt kimi bütün əyrilikləri kəsib keçmiş, demokratiyanın inkişafına öz töhfəsini vermişdir. Bəzən Heydər Əliyev şəxsiyyəti, onun Azərbaycanın müasir siyasi tarixində oynadığı roldan danışarkən, dünya təcrübəsinə istinadən müxtəlif paralelliklər aparılır. Nəzərə alaq ki, tarixi proseslər öz mürəkkəbliyi və dinamikası baxımından müəyyən çalarları etibarı ilə bir-birinə bənzəsə də, heç vaxt bir-birini əks etdirmir, əslində bu mümkün də deyil. Ancaq tarixin xronoloji çərçivələrinin rəngarəngliyindən asılı olmayaraq, onu yaradan və hərəkətverici qüvvəsinə çevrilən mühüm faktor ŞƏXSİYYƏTDİR. Zəngin dövlətçilik ənənələrinə malik olan məmləkətimiz tarixi boyu çoxsaylı hakimiyyət dönəmlərini yaşasa da, bu dövr ərzində meydana çıxan əsl dövlət xadimi standartlarına cavab verən şəxsiyyətləri barmaqla sayılacaq qədərdir. Şübhəsiz ki, dövlətçiliyimizin bütün dönəmləri özünün dolanbacları, intibahı, tənəzzülü və tərəqqisi ilə birlikdə bizə məxsusdur və onun təəssübünü də biz çəkməliyik. Bununla yanaşı, etiraf etmək lazımdır ki, müstəqil Azərbaycanın hazırkı durumunda geriyə boylanmaq və dövlətçilik tarixindən yetərsiz misallar gətirmək çətindir. Məhz Heydər Əliyev öz şəxsiyyətinin əks etdirdiyi yüksək keyfiyyətləri, böyük bir mərhələyə sirayət edən əhatəli fəaliyyəti, milli ənənlərimizə dayanıqlı zəngin mənəvi xüsusiyyətləri etibarı ilə Azərbaycan tarixində əsil RƏHBƏR kompleksini yarada bilib. Heydər Əliyevin nail olduğu bu mərhələ artıq etalondur, onun qurucusu olduğu müstəqil dövlətimiz isə xalqımızın genetik yaddaşında dərin iz buraxmış bütün dövlətlərdən təməlinin möhkəmliyi, ümummilli xarakteri ilə seçilir.

Müasir dünyada uğur qazanmağımız milli maraqlarımızın prioritet istiqamətlərinin dəqiq müəyyənləşdirilməsindən keçir. Heydər Əliyev ideoloji məktəbi bu

istiqamətdə müstəqilliyimizin möhkəmlənməsində müstəsna xidmətləri olan və gələcəkdə də bu dövlətin təəssübünü çəkərək, onun tərəqqisini təmin etməyə qadirdir. Müstəqilliyin elanı, hələ ayaq üstə durmağa qadir olan bir dövlətin qurulması demək deyildi. Heç də təsadüfi deyildir ki, 80-ci illərin sonundan başlayan xaotik proseslərin gedişində çoxları istiqlaliyyətə bəsit təfəkkür aspektindən yanaşırdı, beləliklə ani olaraq, yaranmış kütləvi eyforiya sonradan kütləvi ruh düşkünlüyünə gətirib çıxardı. Uzağa getməyək, yaşadığımız son beş il gözümüz önündə cərəyan proseslər göstərdi ki, millətin müqəddəratını siyasətə təsadüfi gəlmiş, idarəetməni bilən, lakin millətini sevməyən və ya əksinə, millətə xidməti şovinistcəsinə qavrayan, idarəetmə təcrübəsi olmayanlara tapşıranda acınacaqlı fəsadlarla üz-üzə dayandıq. Azərbaycan bir tərəfdən regionda maraqları kəsişən iri fövqəlgüc mərkəzlərini, digər tərəfdən isə nə istədiklərini özləri də bilməyən, əksər hallarda isə olmayan hakimiyyət uğrunda hər şeylərindən keçməyə hazır olan vəzifə dəllallarının sınaq meydanına çevrilmişdi. Həmin dövrün qara rəngli xronologiyasını bir anlığa gözümüz önündə canlandıraq, erməni separatizmi, növbəti deportasiya dalğası, artan təzyiqlər, eyni zamanda həmin dövrün ümumişlək sözünə çevrilmiş ifadə ilə desək, "kreslo davası". Həmin burulğanlı proseslər millətin neçə onillikdən sonra oyanışı və Azərbaycanın uzun illər təcrid olunduğu dünyaya açıldığı bir vaxtda təsadüf edirdi. Beləliklə, ağrılı-acılı xaosda həm millətin öz gücünə inamı qırılır və bunula yanaşı köhnə imperiyanın xiffətini çəkmək tendensiyası cəmiyyətə bütünlüklə sirayət edirdi, digər tərəfdən isə dünya Azərbaycanı dağınıq, natamam, anormal keyfiyyətlərə malik bir ölkə kimi tanımağa başlayırdı. Hər iki cəhətdən zəifliyimiz isə öz növbəsində bizi istəməyən qüvvələrin əl-qol açmalarına rəvac vermiş olurdu. Müstəqilliyə bir proses kimi yox, utopik dəyərlər sistemi kimi baxan, dumanlı siyasət qəhrəmanları, tarımar olmuş məmləkətdə yalnız vəzifəsini düşünən səriştəsiz məmurlar yığnağı daxili müqəddəratımızı qırır, bizi düşmənin qarşısında əliyalın edirdi. İndi müstəqilliyimizin onbirinci ildönümünü yaşadığımız məqamda yaxın keçmişimizin qaranlıq səhifələrini vərəqləyərkən, birmənalı olaraq belə bir nəticəyə gəlmək mümkündür ki, yuxarıda qeyd etdiyimiz qruplaşmanın hər iki qütbü medalın tərs üzü idi, başqa sözlə desək, mahiyyət etibarı ilə antimilli xüsusiyyət kəsb edirdilər. Belə mənəvi-siyasi aşınma şəraitində dövlət qurmaq, yox yerdən dövlətçilik yaratmaq heç də hər siyasətçiyə müəssər olan missiya deyildi. İndi tez-tez belə ifadəni eşidirik ki, Heydər Əliyev xalqın təkidli tələblərindən sonra iqtidara dəvət olundu. Məgər, 1993-cü ildə Azərbaycanda iqtidar var idimi? Dağılmış, parçalanmış cəmiyyət, qardaş qarşıdurması, müvvəqəti xaltura obyektinə çevrilmiş siyasi oyunlar Heydər Əliyevin yolunu gözləyirdi. Təsvir etdiyimiz mənzərə əslində, dövlətsiz cəmiyyətin əsas xüsusiyyətləridir ki, yalnız tarixi qurtuluş günündə Azərbaycan bütün bunlardan imtina etdi, nicatını böyük şəxsiyyətin qaydışında görən ölkənin davamlı inkişafı təmin olundu. Bizim fəxr ediləsi əsl istiqlaliyyət tariximiz məhz 1993-cü ildən başladı, totalitar cəmiyyətdən qurtulan, lakin anarxiya məngənəsində sıxılan Azərbaycan demokratik relslər üzərinə çıxarıldı, az vaxtda, nəinki Qafqaz, bütünlükdə post-sovet məkanına nümunə oldu. Məsələyə bu kontekstdən yanaşdıqda, bir praqmatik məntiqi nəticəni xüsusi vurğulamağımız gərəkdir ki, Heydər Əliyev iqtidara yox, dağılmış məmləkətinə sahib durdu. Qısa vaxt ərzində ölkəmiz haqqında beynəlxalq aləmdə formalaşmış mənfi rəy aradan qaldırıldı, bir-birinin ardınca müxtəlif səviyyələrdə məğlubiyyətlər yaşayan xalqın ruh düşkünlüyünə, kütləvi pessimizminə son qoyuldu. Müstəqil Azərbaycanın vətəndaşı öz respublikasıyla qürur duymağa başladı ki, bu, gənc dövlət üçün ən başlıca göstəricidir.



Heydər Əliyev Azərbaycanın dünyada yerini müəyyənləşdirdi. Bu heç də sırf geopolitik amillərlə izah oluna bilməz. Burada şəxsiyyətin məxsusi keyfiyyətləri xüsusi rol oynayır. Sovet dövrünün bütün dövlət xadimlərindən, siyasətçilərindən öz peşəkarlığı və bacarığına görə fərqlənən Heydər Əliyevin sayəsində bizə keçmiş ittifaqın hər yerində hörmət edirdilərsə, müstəqillik əldə etdikdən sonra da dünyanın fövqəlgüc mərkəzləri yenə də Heydər Əliyevə görə Azərbaycanı tanıyır, onunla hesablaşırlar. Bu baxımdan Azərbaycanın dünyadakı yeri kontekstində təhlil aparsaq, Heydər Əliyevin strateji kursunun məqsədyönlü mahiyyətini açıqlamış olarıq.

Hakimiyyətə qaydışından dərhal sonra respublika daxilində baş alıb gedən xaosu qismən cilovlayan dövlət başçısı, xarici siyasət sahəsində buraxılmış kobud səhvlərin aradan qaldırılması ilə yanaşı, yeni strateji konsepsiyanı həyata keçirməyə başladı. Ümumiyyətlə, götürdükdə, dövlətçilik üçün əlverişli geopolitik məkanda yerləşəməyən Azərbaycan qısa müddət ərzində səriştəsiz iqtidarların utopik ideyaları üzərində köklənmiş siyasəti nəticəsində dünyada təklənmişdi. Ermənilərin çoxdan hazırlanmış işğalçı niyyətləri çox zaman cəmiyyətin müqavimət imkanlarının tükənməsindən qaynaqlanırdı. Bizimlə, nəinki dünya dövlətləri, heç yaxın qonşularımız belə hesablaşmırdı, bizi istəməyən qüvvələrin aktivliyini nəzərə almayan vəzifə düşkünləri isə əsas enerjilərini daxildən düşmən obrazı yaradıb ona qarşı mübarizə aparmağa yönəltmişdilər.

Heydər Əliyev strategiyasının ən böyük uğuru Azərbaycanı dünyaya tanıdan prioritet istiqamətləri müəyyənləşdirməsi və əsas ağırlığı bu istiqamətə yönəltməsi oldu. Mövcud məhdud imkanlar şəraitində neft amilini yüksək qiymətləndirən Prezident xalqın bu sərvətindən məhz onun mənafeyi naminə istifadə etmək məqsədi ilə dünyanın diqqətini, nəinki Azərbaycana, bütövlükdə regiona cəlb edə bildi. Hələ sütunlarını bərkitməmiş dövlətin böyük neft oyununda yüksək dividentlər əldə edəcəyindən ehtiyatlanan düşmənlərimiz bəd əməllərini daha da intensivləşdirdilər, ancaq onlar unudurdular ki, indi dövlət maşınının sükanı arxasında dayanan şəxsiyyət sıradan biri deyil, Heydər Əliyevdir. Onun xalqdan güc alan, bitib-tükənməz enerjisi qarşısında dünyanın müxtəlif paytaxtlarında hazırlanmış anti-Azərbaycan ssenariləri reallaşa bilmədi. Müəllifi Heydər Əliyev olan neft strategiyası özünün qlobal xarakteri baxımından ilk öncə Qərbin demokratik dairələrinin diqqətini cəlb etdi. Neft iqtisadi səciyyəsindən çıxaraq, daha geniş çalarları əks etdirməyə başladı. Bu istiqamətdə iqtisadi mühakimələr yürüdərək,

Azərbaycının hansı mənfəət götürəcəyinə toxunmadan konkret bir detala diqqəti yönəltmək lazımdır. 1994-cü ildə "Əsrin Müqaviləsi" imzalanarkən çoxları buna yalnız iqtisadi prizmadan yanaşaraq, böyük layihənin miqyasını kiçiltmək niyyətində idi. Ancaq sonrakı tarixi proseslər sübut etdi ki, "Əsrin Müqvailəsi" "Əsrin Mübarizəsi" idi və müstəqil Azərbaycanın strateji inkişafına hesablanmışdı. Gəlin açıq etiraf edək ki, mütəxəssislərin hesablamalarına görə, Azərbaycana məxsus sektor da daxil olmaqla, bütövlükdə Xəzər hövzəsinin karbohidrogen ehtiyatları dünyanın neft ehtiyatlarının dörd faizindən bir qədər çoxunu təşkil edir, belə olan halda Azərbaycanı və onun timsalında regionu dünya üçün cəlbedici edən hansı faktordur? Əgər yalnız iqtisadi mənfəətdirsə, şübhəsiz ki, dünya bazarında Xəzər hövzəsinin ehtiyatlarından istifadə etmədən də keçinmək mümkündür. Deməli, neft strategiyası yalnız bir kontekstdən yanaşılaraq, təhlil edilə bilməz, o, özlüyündə nəhəng palitranı əks etdirir. Heydər Əliyev neft amilinə istinad edərək, geopolitik maraqların təmin edilməsinə, müstəqilliyimizin bazisinin formalaşdırılmasına nail oldu. Bu strategiya tək Azərbaycan üçün deyil, Qafqaz və Mərkəzi Asiya regionu üçün də öz töhfəsini verməkdədir. Beləliklə, Azərbaycan demokratiyanın, qərb dəyərlərinin möhkəmlənib, intişar tapması üçün platsdarm funksiyasını yerinə yetirməkdədir. Amerikada, Avropada yaxşı dərk edilməkdədir ki, dünyanın inkişaf tempindən doğan demokratik düşüncə tərzinin post-sovet məkanında özünə yer etməsi üçün bu dəyərlər öncə Azərbaycanda möhkəmlənməlidir. Bu baxımdan Heydər Əliyevin qurduğu dövlət mexanizmi keçmiş sosializm düşərgəsini təşkil edən gənc siyasi sistemlər üçün örnəkdir. Xarici siyasətimizin mühüm komponentinə çevrilmiş Bakı-Tbilisi-Ceyhan Əsas İxrac neft kəmərinin təməlinin qoyulması regional inteqrasiyanı daha da sürətləndirəcəkdir. Azərbaycan, Gürcüstan və Türkiyəni əhatə edən layihə sözün həqiqi mənasında "üç dənizin əfsanəsidir". Bir vaxtlar çoxlarının inanmadığı bu əfsanənin reallığa çevrilməsi isə birbaşa Heydər Əliyevin danılmaz xidmətidir.

Qurtuluş günündən başlanan tarix Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə tənzimlənməsinə də öz töhfəsini verdi. Uzun müddət ordu quruculuğunda buraxılan səhvlər, əyintilər hərbi məğlubiyyətimizi şərtləndirən amil olmuşdur. Müharibəyə Vətən uğrunda savaş meydanı kimi baxmaq əvəzinə ona torpaqların satılması ilə hakimiyyət ambisiyalarını təmin etməyə çalışan şəxslər, təəssüf ki, indi də cəfəng iddialarından əl çəkmək istəmirlər. Həmin dövrdə yaranmış anarxiyanın başlıca səbəbkarları indi cildini dəyişib, dondan-dona girsələr də, artıq simaları ifşa olunduğundan bir qayda olaraq, həmişə xalqın qınaq hədəfinə çevriliblər. Heydər Əliyev sahibsiz, dağılmış Vətənini məişət qəhrəmanlığı göstərən şəxslərin əlindən təhvil alanda Azərbaycanın ordusu əslində dağınıq, kortəbii dəstələrdən ibarət idi. Şübhəsiz ki, həmin dövr üçün yalnız güc amilinə istinadən torpaqların azad olunmasını söyləmək düzgün hesablanmamış addım olardı ki, bunun da acınacaqlı nəticəsini çox gözləməyə ehtiyac qalmayacaqdı. Heç bir vəchlə Azərbaycanın müstəqilliyini istəməyən Mütəllibov komandası, yalnız məhdud düşüncələri ilə yadda qalan AXC-Müsavat guruhu öz-



lərinin başabəla addımları ilə onsuz da cəmiyyəti tərksilah etmişdilər. Müqaviməti sındırılmış xalqı yenidən döyüş meydanlarına sürükləmək real tarixi şəraitdə avantüranın daha da dərinləşməsi olardı. Sülhsevər Heydər Əliyev missiyası sayəsində nahaq qanların tökülməsinin qarşısını aldı, atəşkəs imzalanmaqla ölkənin inkişafı, ordunun yenidən qurulması üçün dinc tənəffüs əldə olundu. Cəmiyyətin yenidən təşkil olunmasında və insanların sabaha ümidlə baxmasını təmin etmək atəşkəsin fəlsəfi mahiyyətini təşkil edir. Bəzi siyasi opponentlərin əsassız iddialarına baxmayaraq, atəşkəs dövlət quruculuğu prosesi üçün zəruri olan ictimai-siyasi sabitliyin bərqərar olmasında müstəsna əhəmiyyətə malikdir. İndi Azərbaycanın nail olduğu bütün nailiyyətlərə görə, gərgin diplomatik səylər nəticəsində bərqərar olmuş sabitliyə minnətdar olmalıyıq.

Dünyanın Azərbaycana artan maraqları kontekstində milli maraqlarımızın çərçivəsinin müəyyənləşməsi lazımdır. Heydər Əliyevin inkişaf strategiyası məhz Azərbaycanın milli maraqlarının mühafizəsinə, dünyada layiqli təmsil olunmasına yönəlib. Ermənistanın işğalı nəticəsində meydana çıxan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması yönümündə aparılan diplomatik danışıqlarda, mötəbər beynəlxalq kofranslarda milli maraqlarımızın qorunması işğalçının əsl simasını ifşa etdi. Bir vaxtlar Qarabağ kartından hakimiyyət uğrunda mübarizə vasitəsi kimi yararlanan müxalifət öz növbəsində prosesin masştabını hələ indi təsəvvür etməyə başlayıb. Ölkəmizin tale məsələsinə çevrilən bu münaqişənin səbəblərinə toxunmadan qeyd etmək lazımdır ki, artıq Azərbaycana təsir vasitəsi kimi formalaşmış Qarabağ məsələsinin həllinə konkret prizmadan yanaşılması düzgün olmazdı. Artıq dünya Azərbaycan həqiqətlərini daha yaxından duyur, dərk edir. Münaqişənin həlli üçün yeni imkanların açılmasını da qeyd etmək yerinə düşərdi - xüsusən də, İlham Əliyevin diplomatik uğurlarındandır ki, problemin Avropa Şurası kontekstində də müzakirəsi aparılır. Bu onu göstərir ki, Azərbaycan münaqişənin daha da qloballaşmasından, dünyanın diqqət mərkəzində olmasından,başqa sözlə desək, açıq müzakirələrdən ehtiyatlanmır, çünki, bizim işimiz haqq işidir. Bu illər ərzində Heydər Əliyevin ardıcıl surətdə həyata keçirdiyi siyasət Azərbaycanın haqlı tərəf olduğunu dünyaya sübut edib, indi bizimlə hesablaşır, bizim mövqeyimizi nəzərə alırlar.

Qarşılaşdığımız problemlər yalnız xarici amillərlə, bizdən asılı olmayan, dünyanın inkişaf tempindən irəli gələn dəyərlərlə əlaqədar deyil. Keçid dövrünün mövcud qayğıları mentalitetimizin başlıca xüsusiyyətlərini özündə əks etdirir. Bir vaxtlar proseslərin gedişində belə bir tendensiya müşayiət edilirdi ki, sanki, dövlətlə cəmiyyət arasında bir qarşıdurma mövcuddur və bu antoqonizm getdikcə dərinləşməkdə idi. Bu, sovet dönəmindən qaynaqlanan psixologiya kimi də qiymətləndirilə bilər. Uzun illər imperiya buxovları altında qalan bir məmləkətin vətəndaşlarının təfəkküründə dövlət anlayışı ögey və milli xüsusiyyətlərdən kənar aparat kompleksini formalaşdırıb. Məhz bu tendensiya müstəqil dövlət quruculuğu prosesində özünü qabarıq nəzərə çarpdırmaqdadır. İctimai mülkiyyətdən, kollektivçilik münasibətlərindən imtina edilib, ölkə iqtisadiyyatı-

nın bazar iqtisadi reksləri üzərinə çıxarılması öz növbəsində ölkənin siyasi sistemində də dəyişiklikləri zəruri edirdi. Nəzərə alaq ki, naşı siyasətçilərin hakimiyyət oyunları, müstəqilliyin ilk illərində buraxılmış kobud səhvlər ictimai təfəkkürümüzdə dərin iz buraxdı. Xüsusən, 1991-ci ildən daha da kəskinləşən və 1993-cü ilin iyununa kimi davam edən kütləvi anlaşılmazlıq, hakimiyyətsizlik, vətəndaş qarşıdurması dövlətçilik təfəkküründə öz zərərli fəsadlarını buraxmışdı. Xalq maymaq rəhbərlərin timsalında zəif dövlət xadimi simasını gördüyündən vətəndaşların siyasi fəallığı sıfır həddində idi. Gözlənilməz plüralizm şəraitində hazırlıqsız yaxalanan Azərbaycan cəmiyyətində baş alıb gedən xaosun dərinləşməsində məhdud ambisiyalı siyasilərin yaratdığı partiyaların da xüsusi rolu oldu. Guya milli maraqlarımızı müdafiə etdiklərini bildirərək əslində isə demoqogiya çərçivəsindən kənara çıxa bilməyən həmin "dil pəhləvanları" indi də mövcudluqlarını qoruyub saxlamaq üçün dəridən-qabıqdan çıxır. Maraq doğuran cəhət odur ki, necə ola bilir ki, uzun illərdir milli birlikdən, həmrəylikdən danışan çoxsaylı müxalifət partiyaları xırda bir məsələ ətrafında öz aralarında belə ortaq məxrəcə gələ bilmirlər. Bu, bir daha nümayiş etdirir ki, yalnız əhəmiyyətsiz kəmiyyət görüntüsü yaradan müxalifət düçar olduğu ətalətdən qabağa getmək iqtidarında deyil, müstəqil Azərbaycanda demokratiyanın getdikcə daha da dərinləşməsi isə bu düşərgənin imkanlarını daha da tükəndirir, cəmiyyətin lazımsız elementinə çevirir. Şübhəsiz ki, sadaladığımız bütün bu fəsadlar öz növbəsində cəmiyyətin öz milli dövlətinə münasibətdə laqeyd yanaşması ilə nəticələnərdi. Sonradan insanların Vətənin müdafiəsindən yayınması, cəbhələrdə baş alıb gedən fərarilik və digər neqativ hallar vətəndaşların öz dövlətlərinə inamsızlığı ilə izah olunmalıdır. Belə şəraitdə cəmiyyətin geniş spektrini əhatə edən imperiya nostaljisi də keçmiş iqtidarların Heydər Əliyevə miras qoyduğu problemlərdən idi. Beləliklə, rəsmən elan olunmuş müstəqillik aktının dövlətçilik faktına çevrilməsi prosesi natamamlıq kompleksi ilə müşayiət olunurdu. Natamamlıq birinci növbədə mentalitetimizdən irəli gələn xüsusiyyətlərlə izah olunmalıdır. Tarixən dövlətçilik şüurunun zəifliyi, eyni zamanda bir vaxtlar müstəmləkəsi olduğumuz imperiyaların, regionda maraqları kəsişən dünyanın iri fövqəlgüc mərəkzlərinin iddiaları şəraitində müstəqil dövlət yaratmaq olduqca müşkül, bəzi məqamlarda isə mümkün olan məsələ deyildi. Bütün dövrlərdə Azərbaycan öz geopolitik mövqeyi baxımından tranzit ölkə funksiyasını yerinə yetirib, Böyük İpək yolu üzərində körpü olmaq, Şərqlə Qərb mədəniyyətlərinin qovuşduğu ərazidə yerləşmək müəyyən üstünlüklər verməklə yanaşı, tarix şüurunda əks effektini də buraxıb. Dünyanın inkişaf ritminə nəzər salsaq, aydınlaşar ki, körpü üzərində dövlət qurmaq, bütün tərəflərin maraqlarına cavab verən balanslanlaşdırılmış siyasət həyata keçirmək, çox az millətlərə müəssər olmuşdu. Bir vaxtlar Pyotr öz vəsiətnaməsində gələcək xələflərinə mütləq dənizlərə çıxmağı, tranzit yollar üzərində hökmran olmağı yazmışdı. Azərbaycan xatırlatdığımız kimi, Qafqaz və Mərkəzi Asiya regionları arasında mühüm strateji əhəmiyyət kəsb edən məkanda qərar tutub, belə şəraitdə müstəqilliyimizi, nəinki inkişaf etdirmək, sadəcə



qoruyub saxlamaq belə misilsiz zəhmət tələb edir. Məhz Heydər Əliyev çətin geopolitik durumda Azərbaycanın tərəqqisi üçün elə bir inkişaf konsepsiyası hazırlayıb həyata keçirdi ki, onun çərçivəsində, kənara çıxmaq sadəcə olaraq, mümkün deyil və bu, Azərbaycan dövlətçiliyinin məhvi ilə nəticələnə bilər. Azərbaycan dövlətinin bünövrəsi sağlam təməl üzərində qurulduğundan onun mövcudluğu daimi və dönməz xarakter daşıyır. Bizim respublikanın siyasi sistemində azad bazar münasibətlərinin möhkəmlənməsi, demokratiyanın dərinləşməsi Qafqazda sülhün, əmin-amanlığın möhkəmlənməsi, daimi olması deməkdir. Mülahizələrimizi ümumiləşdirərək, Heydər Əliyev siyasi kursunu bizim milli strateji konsepsiyamıza çevirən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**1.** Heydər Əliyev öz şəxsiyyətinin əks etdirdiyi yüksək keyfiyyətləri, böyük bir mərhələyə sirayət edən əhatəli fəaliyyəti, milli ənənlərimizə dayanıqlı zəngin mənəvi xüsusiyyətləri etibarı ilə Azərbaycan tarixində əsl RƏHBƏR kompleksini yarda bildi. Heydər Əliyevin nail olduğu bu mərhələ artıq etalondur, onun qurucusu olduğu müstəqil dövlətimiz isə xalqımızın genetik yaddaşında dərin iz buraxmış bütün dövlətlərdən təməlinin möhkəmliyi, ümummilli xarakteri ilə seçilir.

**2.** Bizim fəxr ediləsi əsl istiqlaliyyət tariximiz məhz 1993-cü ildən başladı, totalitar cəmiyyətdən qurtulan, lakin anarxiya məngənəsində sıxılan Azərbaycan demokratik reyslər üzərinə çıxarıldı, az vaxtda, nəinki Qafqaz, bütünlükdə post-sovet məkanına nümunə oldu. Məsələyə bu kontekstdən yanaşdıqda, bir praqmatik məntiqi nəticəni xüsusi vurğulamağımız gərəkdir ki, Heydər Əliyev iqtidara yox, dağılmış məmləkətinə sahib durdu. Qısa vaxt ərzində ölkəmiz haqqında beynəlxalq aləmdə formalaşmış mənfi rəy aradan qaldırıldı, bir-birinin ardınca müxtəlif səviyyələrdə məğlubiyyətlər yaşayan xalqın ruh düşkünlüyünə, kütləvi pessimizminə son qoyuldu.

**3.** Amerikada, Avropada yaxşı dərk edilməkdədir ki, dünyanın inkişaf tempindən doğan demokratik düşüncə tərzinin post-sovet məkanda özünə yer etməsi üçün bu dəyərlər ilk öncə Azərbaycanda möhkəmlənməlidir. Bu baxımdan Heydər Əliyevin qurduğu dövlət mexanizmi keçmiş sosializm düşərgəsini təşkil edən gənc siyasi sistemlər üçün nümunədir.

**4.** İctimai-siyasi formasiyaların bir-birini əvəzləməsinə, hər dövrün öz çətinlikləri, problemləri olmasına baxmayaraq, fəaliyyəti həmişə xalqın gözü qarşısında olan Heydər Əliyevin zəngin, çoxşaxəli missiyasının mahiyyətində xalqının rifahı naminə çalışmaq dayanıb. Onu bu yoldan nə imperiyanın keçilməz sədləri, bürokratiyası, nə milli satqınlarımızın xəyanətləri, nə də birləşmiş xarici, daxili düşmənlərimizin məkrli planları saxlaya bilib.

**5.** Dövlətçilik təfəkkürümüzdə "Xalq-Heydər" birliyi əbədi yaşarlıq qazanıb. Bu, bir daha təsdiq edir ki, Heydər Əliyev siyasəti yalnız və yalnız xalqdan güc alır, xalqa arxalanır, buna görə də, haqlı olaraq, Heydər Əliyev ideyaları milli strateji konsepsiyamız kimi dəyərləndirilir.